**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazmasi hüququnda*

# ŞEYXÜLİSLAM ƏBDÜSSALAM AXUNDZADƏNİN DİNİ-ETİK GÖRÜŞLƏRİ

İxtisas: 7213.01 – Dinşünaslıq

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Sevinc Vaqif qızı Rəhnulla**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Ərəbdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Tarix elmləri doktoru, professor
**Şeyxülislam Allahşükür Hümmət oğlu Paşazadə**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, akademik
**Möhsün Zellabdin oğlu Nağısoylu**

Filologiya elmləri doktoru, dosent
**Nəsib Cümşüd oğlu Göyüşov**

İlahiyyat üzrə fəlsəfə doktoru
**Aqil Muxtar oğlu Şirinov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən, BFD 4.03 – Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Fəlsəfə elmləri doktoru, dosent
**Zəkiyyə Ağababa qızı Əbilova**

Dissertasiya şurasının elmi katibi: İlahiyyat üzrə fəlsəfə doktoru, dosent
**Babaşlı Allahverdi oğlu Məmmədəli**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru, professor
**Əsədulla Cuci oğlu Qurbanov**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Çar Rusiyası tərəfindənAzərbaycanın işğal olunmuş ərazilərində müsəlman ruhaniliyinin cəmiyyətin sosial-siyasi strukturunda yerinin öyrənilməsi, Qafqaz Müsəlmanları Ruhani İdarəsinin yaranma tarixi və şeyxülislamların həyat və yaradıcılığının araşdırılması Azərbaycan dinşünaslığı və fəlsəfə tarixinin qarşısında duran mühüm vəzifələrdəndir.

Ufa və Tavrida Ruhani İdarələrinin fəaliyyəti imperiyanın xeyrinə uğurlu nəticələrindən sonra belə bir idarənin analoqunun Qafqaz müsəlmanları üçün də yaradılması təşəbbüsü irəli sürüldü. 1813-cü il Gülüstan müqaviləsindən sonra Azərbaycanın şimal hissəsini ələ keçirən çar Rusiyası Qafqazda dini məsələləri nəzarətində saxlamaq üçün 1823-cü ildə şiə məzhəbinə başçı kimi şeyxülislam, 1832-ci ildə isə sünni məzhəbinə başçı kimi müfti vəzifələrini təsis etmişdir.

50 ildən artıq təşkil olunması məsələsinə baxılan Zaqafqaziya Sünni və Şiə Müsəlman Ruhani İdarələri isə 5 aprel 1872-ci ildə qanunvericiliklə təsdiq olundu. Qəbul olunan əsasnamə ciddi dəyişikliyə uğramadan 1917-ci ilin fevralına kimi qüvvədə qalmışdır.

Müstəqillik əldə etdikdən sonra ilahiyyat elmlərinə olan marağın artması nəticəsində Azərbaycan xalqının dini-mədəni irsinin müasir tələblər səviyyəsində öyrənilməsi və təbliği mühüm məsələlərdən birinə çevrilmişdir. Şəxsiyyəti maraq doğuran, tədqiqatçı alimlər[1] tərəfindən irsinin, yaradıcılığının öyrənilməsinə çox böyük ehtiyac duyulan mütəfəkkirlərdən biri kimi dəyərləndirilən Əbdüssalam Axundzadə bir çox mədrəsə və məktəblərdə, o cümlədən Qori müəllimlər seminariyasında ana dili və şəriət fənlərini tədris etmişdir.

Hal-hazırda şeyxülislam Allahşükür Paşazadənin sədrliyi ilə fəaliyyət göstərən Qafqaz Müsəlmanları İdarəsinin indiyə qədər on iki şeyxülislamı olmuşdur. Həyat və yaradıçılığı tədqiq edilən Axund

---

[1]Məmmədli H. Qafqazda İslam və Şeyxülislamlar.Bakı, 2005, 180 səh.;Əbilov (Turan) A.İ. Darülmöminin. Bakı: Elm və Təhsil, 2012. 432 səh

Əbdüssalam Axundzadə Ruhani İdarəsinin sayca beşinci şeyxülislamı olmaqla, 21 iyun 1894-cü ildən ömrünün sonuna, yəni 18 noyabr 1907-ci ilə qədər bu vəzifədə fəaliyyət göstərmişdir. Onun müdrik rəhbərliyi nəticəsində Qafqaz Müsəlmanları Ruhani İdarəsi bütün Rusiyada olan Ruhani İdarələri arasında nüfuz qazandı[2].

O, Hacı Zeynalabdin Tağıyev, Mirzə Hüseyn əfəndi Qayıbzadə, Mirzə Fətəli Axundzadə, İsmayil bəy Qasprinski, Nəriman Nərimanov, Firudun bəy Köçərli, Sultan Məcid Qənizadə, Əliağa Şıxlinski kimi dövrünün tanınmış ziyalıları və görkəmli şəxsləri ilə dostluq etmişdir. İ.Qasprinski 1906-cı ildə ötən əsrin 80-ci illərindən bəri Rusiyanın müsəlman-türk xalqlarının ədib və alimləri haqqında geniş oxucu kütləsinə məlumat vermək üçün “Tərcüman”da “Ağ gül dəstəsi, yaxud ədəbiyyati-cədidə xidmətləri” başlığı altında xüsusi rubrika açdı. Azərbaycan ədəbiyyatı rubrikasında təmsil olunan dörd ziyalıdan birinin Ə.Axundzadə olması İ.Qasprinski simasında dövrün ziyalı təbəqəsinin ona verdiyi dəyər və hörmətdən irəli gəlmişdir.

“Azərbaycan Tarixi” kitabında Ə.Axundzadə dövrün yüksək savada malik, maarifçiliklə məşğul olan, çox vaxt məktəb və mədrəsələrdə dini dərslərdən başqa, ana dilindən də dərs deyən ali müsəlman din xadimlərindən biri kimi təqdim olunmuşdur[3].

Axundzadənin Qori müəllimlər seminariyasında tələbələrindən biri olmuş Nəriman Nərimanovun sonralar müəllimi haqqındakı fikirlərindən: *“Türk dili və şəriət müəllimi indiki Şeyxülislam cənab Axund Molla Əbdüssalam olub. Orada tərbiyə alan müsəlman uşaqlarına böyük nəfələr (fayda) götürürdü. Demək olar ki, indiki hali-nisbə Qori seminariyası xüsusən müsəlman şöbəsi böyük tərəqqidə bulunurdu. Cənab Axund Əbdüssalam türk dilinə və şəriət dərslərinə artıq diqqət verirdi. Dərsləri az idisə də vaxtı itirməyib bacardığı qədər ciddi-cəhd edirdi. O vaxt təlim kitabları yox idi. Bununla bərabər gecələr işləyib, gündüz dərsləri üçün hekayələr*

---

2دکتر عقیقی بخشاشی .۱۳۸۹ص ۳۰۶۴ ۵ج ه. شتبریز مفاخر آذربایجان

3Azərbaycan tarixi : yeddi cilddə /AMEA, A. Bakıxanov ad. Tarix İn-tu ; məsul red. M. İsmayılov Bakı: Elm, 2007. 503 s.

*düzəldirdi. Türk dilində sərf və nəhv öyrədirdi, şəriətdən tarixi müqəddəsdən savayı ən mühüm məsələləri həll edirdi. Qeyri dinlərdən təfavütünü və insani nəfəni (insani keyfiyyətləri) söyləyib uşaqların gözlərini açmağa çalışırdı. İnsaf məqamında demək olar ki, Qori seminariyasından elmini tamam edib indi millətpərəst və yainki əli qələm tutan beş-üç nəfər varsa cənab Axund Molla Əbdüssalamın tərbiyəsinə bağlıdır"*[4,5].

Axundzadənin yaşadığı dövrdə mədrəsə və gimnaziyalarda Azərbaycan dilində dini-pedaqoji yönümlü kitablara böyük ehtiyac duyulurdu. Bu səbəbdən də Axundzadənin yazdığı Zubdətul əhkam, Umdətul əhkam, Tarixi müqəddəsi ənbiya və sair kimi əsərlərinin təkrar nəşrləri üçün xahişlər olunmuşdur.

Azərbaycan maarifçiləri kimi Axundzadə də Azərbaycan xalqının zəngin irsinin müqəddəs ənənələri ruhunda tərbiyə almış və öz sələflərinin ideya irsini dərindən öyrənərək onları yeni tarix şəraitində davam etdirmişdir. XIX əsrin sonu XX əsrin başlanğıcında ictimai, pedaqoji tərəqqinin nümayəndələrindən biri olan Axundzadə əxlaq sahəsində də diqqətəlayiq irs qoymuşdur. Axundzadənin etik görüşləri XIX əsrin II yarısında Azərbaycan etik fikrinin ən gözəl nümunələrindəndir. Onun maarifçilik və humanizm ideyaları ilə son dərəcə zəngin olan etikası xalqımızın maddi və mədəni rifahını yaxşılaşdırmaq işinə xidmət etmiş və öz dövrü üçün şübhəsiz mütərəqqi xarakter daşımışdır. Azərbaycan maarifçiləri sırasında özünəməxsus yer tutan Axundzadənin etik görüşlərini XIX əsrin son rübü XX əsrin başlanğıcındakı qabaqcıl, mütərəqqi əxlaq nəzəriyyələri sırasına daxil etmək tam ədalətli olardı.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin qarşısında konkret məqsəd olaraq görkəmli Azərbaycan alimi Əbdüssalam Axundzadənin həyat və dini-ictimai fəaliyyətini

---

[4] ۱۲۸حيات. غ. نر ( ن. نريمانوف) مهم برمسئله –. ,۱۹۰۶ ۱۴ايون №;

[5] ۱۳۱حيات. غ. نر ( ن. نريمانوف) – مهم برمسئله . ,۱۹۰۶ ۱۸ايون №

araşdırmaq, onun AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan əlyazma, litoqrafik (daşbasma) və əski çap əsərlərində maarifçilik ideyalarını və dini-pedaqoji, etik görüşlərini tədqiq etmək və onların tekstoloji, müqayisəli təsvirini hazırlamaq qoyulmuşdur. Bu məqsədə nail olmaq üçün dissertasiyada aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- Çar Rusiyası ərazisində Ruhani İdarələrinin yaranması tarixinin öyrənilməsi;
- Ə.Axundzadənin yaşadığı dövrün ictimai-siyasi durumunun tədqiqi;
- Qafqaz Müsəlmanları Ruhani İdarəsinin şeyxülislamlarını öyrənmək;
- Ə.Axundzadənin dini-pedaqoji fəaliyyətini araşdırmaq;
- Ə.Axundzadənin şeyxülislamlıq fəaliyyətini və dini baxışlarını işıqlandırmaq;
- Ə.Axundzadənin irsini tədqiq etmək, dini-etik görüşlərini araşdırmaq;
- Əlyazmalar İnstitutunda mühafizə olunan əsərlərinin elmi, tekstoloji, müqayisəli təhlilini hazırlamaq.

**Mövzunun öyrənilmə dərəcəsi**. Azərbaycan müstəqillik əldə etdikdən sonra Quranın tərcüməsi, İslam dinşünaslığı, tarixi və fəlsəfəsinin öyrənilməsi, Azərbaycan ruhaniliyinin xüsusi tədqiqat obyekti kimi araşdırılması prosesi başlanmışdır. Cari dövrə qədər bir çox azərbaycanlı islam alimlərinin həyat və fəaliyyətləri araşdırılsa da, Əbdüssalam Axundzadənin həyat və yaradıcılığının, dini-etik baxışlarının, elmi irsinin geniş şəkildə öyrənilməsi tədqiqatçıların diqqətindən kənarda qalmışdır. Ə.Axundzadənin Qori müəllimlər seminariyasındakı müəllimlik fəaliyyəti, irsinin tədqiqatı, şeyxülislam kimi bir dövlət məmuru olaraq Azərbaycan xalqı qarşısında olan xidmətləri istər Azərbaycanda, istərsə də digər ölkələrdə tədqiqatçılar tərəfindən öyrənilməmiş bir mövzu olaraq qalmaqdadır. Onun həyat və fəaliyyətini tədqiq edərkən Azərbaycan

mənbələri ilə yanaşı rus[6] və fars[7]mənbələrindən qısa məlum atlar əldə edildi[8].

**Dissertasiyanın mənbəşünaslıq əsası.** Tədqiqatın I fəslinin mənbəşünaslq əsaslarını Azərbaycan alimlərindən şeyxülislam A.Paşazadə, H.Məmmədli, R.Hüseynli, rus tədqiqatçıları L.Klimoviç, R.Silantev, R.Suleymenov, S.Alişev və Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin materialları təşkil edir.

II fəsildə alimin həyat və yaradıcılığı ilə əlaqədar ilk növbədə ARDTA sənədləri, XIX əsrin sonu XX əsrin əvvəllərində çap olunan "Tərcüman", "İrşad", "Həyat", "Qafqaz" kimi köhnə dövri mətbuat, M.M.Nəvvab, M.S.Ordubadi, Q.Məmmədov, A.Turan, H.Əhmədov kimi tədqiqatçı və alimlərin əsərlərindən istifadə olunmuşdur.

Dissertasiyanın üçüncü fəslinin mənbəşünaslıq əsasına gəlincə, onu AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan Axundzadəyə məxsus əlyazma, litoqrafik (daşbasma) və əski çap kitabları təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi ilk növbədə Qori Müəllimlər seminariyasının müəllimi, Qafqaz Müsəlmanları Ruhani İdarəsinin şeyxülislamı olmuş Ə.Axundzadənin həyatı və elmi irsinin kompleks şəkildə öyrənilməsidir. Axundzadənin keçdiyi həyat yolu barəsində Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi sənədləri və aparılan tədqiqatlar əsasında geniş məlumat verilir, əsərlərinin elmi, müqayisəli təhlili və nəzəri xüsusiyyətləri açılır. Axundzadə və onun elmi irsi indiyə dövrə qədər heç bir zaman ayrıca tədqiqat obyekti kimi öyrənilməmişdir.

---

[6]Климович Л. И. Ислам в царской России. М. Госуда́рственное антирелигио́зное изда́тельство (ГАИЗ) - 1936. 406с.

[7]. هادی هاشمیان «مدافعه بر مقاله خصم » ازعبدالسلام آخوندزاده شیخ الاسلام قفقاز ،کتابخانه موزه مرکز اسناد مجلس شورای اسلامی / پیام بهارستان / د 2، س 3، ش 12 / تابستان 1390 .ص.۳۸۶-۳۷۵

[8] دانشنامه ادب فارسی، جلد پنجم: ادب فارسی در قفقاز (آذربایجان، ارمنستان، گرجستان و جمهوری خودمختار داغستان) به سرپرستی: حسن انوشه ناشر: وزارت فرهنگ و ارشاد اسلامی ص. ۶۷۱ 2000 تهران .

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqatdan əldə olunan nəticələrdən XIX əsrin sonu - XX əsrin əvvəllərində Qafqazda dini-etik görüşlərin, Qafqaz Müsəlmanları Ruhani İdarəsinin və şeyxülislamlığın tarixi, Qori müəllimlər seminariyasının fəaliyyəti və XX əsrin əvvəllərində ermənilərin törətdikləri soyqırımının acı həqiqətlərinin öyrənilməsində yardımçı ola bilər. Dissertasiyadan Azərbaycan ilahiyyatı, elm və təhsil tarixi haqqında yazılan elmi-tədqiqat işlərində, universitetlərin müvafiq fakültələrində keçirilən dərslərdə metodik vəsait kimi təcrübi faydalanmaq olar.

**Dissertasiyanın nəzəri və metodoloji əsasları.** Tədqıqat işinin nəzəri və metodoloji əsasını Azərbaycan, rus, fars, qismən türk və ərəb dilində yazılmış elmi-nəzəri ədəbiyyat, tarixi sənəd və köhnə dövri mətbuat təşkil edir.

Tədqiqatda istifadə olunmuş mənbələrin müqayisəli və tənqidi mətnləri verilmişdir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA Əlyazmalar İnstitutunun Ərəbdilli əlyazmaların tədqiqi şöbəsində yerinə yetirilmişdir.

Dissertasiya işinin əsas nəzəri müddəaları və praktiki əhəmiyyəti 9-u Azərbaycan, 1-i Türkiyə, 1-i Ukraynada olmaqla elmi mətbuatda məqalələrdə və 9-u Azərbaycanda beynəlxalq və respublika səviyyəli, 1-i isə Rusiyada keçirilən beynəlxalq elmi-praktiki konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Qarşıya qoyulmuş məsələlərin təhlilinə uyğun olaraq dissertasiya Giriş 9 səhifə, I fəsil 34 səhifə, II fəsil 39 səhifə, III fəsil 50 səhifə, Nəticə 3 səhifə, İstifadə olunmuş ədəbiyyat siyahısı 12 səhifə və İxtisarlar 1 səhifə olmaqla ümumilikdə 150 səhifə 246.834 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, onun elmi yeniliyi, təcrübi əhəmiyyəti, obyekt və metodlarından bəhs edilir, işin aprobasiyası və quruluşu göstərilir.

Dissertasiya üç fəsildən ibarətdir.

I Fəsil – **"Əbdüssalam Axundzadənin dövründə dini və ictimai-siyasi vəziyyət"** adlanır. Bu fəsil dörd paraqrafdan ibarətdir.

**"Rusiya imperiyasında ilk Ruhani İdarəsi"** adlanan birinci paraqrafda XVI əsrdən etibarən müsəlmanlar yaşayan əraziləri işğal edən Rusiyanın burada apardığı xristianlaşdırma siyasəti lakonik şəkildə izlənilir. Məcburi şəkildə xristianlaşdırma planı iflasa uğradıqdan sonra hakimiyyət öz siyasətində dəyişikliklər etmək məcburiyyətində qaldı. Etibarın qazanılması, müsəlman ruhanilərini öz tərəfinə cəlb etmə II Yekaterina siyasətinin aparıcı istiqaməti olmuşdur[9]. Bu məqsədlə görülən tədbirlərə Orenburq və Tavrida Məhəmmədi Ruhani İdarələrinin yaradılması da daxil idi[10]. Bu paraqrafda Orenburq Məhəmmədi Ruhani İdarəsinin quruluşu və ona rəhbərlik etmiş ilk müftilər, adminstrasiya ilə Ruhani məclisi arasındakı ixtilaflar barəsində məlumat verilir.

Birinci fəslin **"Qafqazda dini-siyasi vəziyyət və Ruhani İdarəsi"** adlanan ikinci paraqrafında Ə.Axundzadənin yaşadığı dövrün dini-siyasi mənzərəsi, Rusiya imperiyasının Azərbaycan ərazilərini işğal etdikdən sonra yürütdüyü siyasət, müsəlman ruhanilərini idarə etmək üçün görülən tədbirlər, Ruhani İdarəsinin təşkili üçün hazırlanan layihələr haqqında qısa məlumat verilir. Bu paraqrafda ilk şeyxülislam və müftinin təyin olunması və 5 aprel 1872-ci ildə isə rəsmi olaraq Ruhani İdarələrinin təşkil olunması kimi

---

[9] Силантьев Р.А. Мусульманская дипломатия в России: история и современность. ИПК МГЛУ - Рема, 2010 –486. с

[10]Тихонов А.К. Католики, мусульмане и иудеи Российской империи в последней четверти XVIII-начале XX в. Изд-во С.-Петербургского университета, 2007 - 352 с.

tarixi hadisələr izlənilir, idarənin quruluşu, vəzifələri və səlahiyyətləri barədə geniş məlumat verilir. ARDTA-də mühafizə olunan Qafqaz müsəlmanlarının ruhani şəxslərinin və habelə Ruhani İdarəsinin dəftərxanalarında xidmət edənlərin hüquq və imtiyazları barəsində olan sənədlər və Ruhani İdarəsinə məxsus təsəvvürnamə transliterasiya olunaraq tədqiqata əlavə edilmişdir[11].

**“Qafqaz Ruhani İdarəsinin şeyxülislamları”** adlanan növbəti paraqrafda şeyxülislam kəlməsinin izahı, ad və vəzifə olaraq ilk dəfə işlənmə tarixi açıqlanır. Burada Qafqaz Müsəlmanları Ruhani İdarəsinin yarandığı vaxtdan Ə.Axundzadəyə qədər təyin olunmuş şeyxülislamların həyat və fəaliyyətləri təsvir olunub. Bu paraqrafda ilk şeyxülislam Məmmədəli Hüseynzadə, daha sonra Fazil İravani, Əhməd Hüseynzadə, Mirzə Həsən Tahirzadənin həyat və ictimai-siyasi fəaliyyətləri, yaradıcılıqları barədə dəyərli məlumatlar öz əksini tapır[12].

Şeyxülislam Mirzə Həsən Tahirzadədən sonra həyat və yaradıcılığı tədqiq edilən Əbdüssalam Axundzadə Ruhani İdarəsinin şeyxülislamı olmuşdur.

I fəslin sonuncu paraqrafı **“Əbdüssalam Axundzadədən sonrakı şeyxülislamlar”** adlanır. Bu paraqrafda ermənilər tərəfindən Azərbaycan ərazilərinin qəsb və əhalisinin soyqırıma başlaması, Rusiya İmperiyasının süqutu, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və işğalı, Sovet İttifaqının yaradılması və dağıdılması, Azərbaycan dövlətinin müstəqilliyini bərpa etməsi kimi Azərbaycan xalqı üçün çox çeşməçeşli, faciəvi, önəmli dövr və hadisələrin Ruhani İdarəsi və şeyxülislamların həyat və fəaliyyətlərində də əks olunduğunu görmək olar.

Bu paraqrafda Əbdüssalam Axundzadə vəfat edikdən sonra təyin olunan, Ruhani İdarəsində şeyxülislam vəzifəni ən az icra etmiş, sayca VI şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkəvinin həyat və fəaliyyətinin təsvir olunması ilə başlayır. Ardınca Qafqazda çar Rusiyasının sonuncu, Azərbaycan Cümhuriyyətinin isə ilk

---

[11]ARDTA - fond №290 siyahi 2; iş- № 3883.

[12] Məmmədli H. Qafqazda İslam və Şeyxülislamlar.Bakı, 2005, 180 səh

şeyxülislamı Məhəmməd Pişnamazzadə, Azərbaycan Sovet Sosialist Respublikasının ilk şeyxülislamı Ağa Əlizadə, Sovetlər Birliyi dövründə təyin olunmuş şeyxülislamlar Möhsün Həkimzadə, Əliağa Süleymanzadə, Mirqəzənfər İbrahimovun həyat və ictimai-siyasi fəaliyyətləri izlənilir[13]. Bu paraqrafda sonuncu, XII şeyxülislam Allahşükür Paşazadənin həyatı, bütün Qafqazın şeyxi olaraq geniş ictimai-siyasi fəaliyyəti[14] barədə məlumat verilməklə tamamlanır[15].

Dissertasiyanın **"Əbdüssalam Axundzadənin həyatı və dini-ictimai fəaliyyəti"** adlanan II fəsli üç paraqrafla əhatə olunmuşdur. Bu fəslin **"Əbdüssalam Axundzadənin həyatı"** adlanan birinci paraqrafında onun Səlyanda anadan olması, təhsili, ailəsi, uşaqları, Tiflisdə müxtəlif mədrəsə və Qori müəllimlər seminariyasındakı pedoqoji fəaliyyəti barətə geniş məlumat təqdim olunub.

Axundzadənin təvəllüdü haqqında doğum şəhadətnaməsində deyilir: *"Tiflis-Kutaisi şiə quberniya məclisinin sədri Axund Hacı Baba Həsənzadə, üzvlər Axund Mustafa Talıbzadə, Axund İsmaıl Yusifzadə tərəfindən 1877-ci il fevral ayının 17-də təsdiq olunmuş şəhadətnaməyə əsasən Əbdüssalam Axundzadə Salyan sakini Axund Vəliməhəmməd Allahverdi oğlunun Xanım Əliverdi qızı ilə qanuni nikahından hicri tarixi zilhiccə ayının 12-si 1258-ci il, xristian təqvimi 2 yanvar 1843-cü ildə anadan olmuş doğma oğludur"*[16].

Həyat yoldaşları vaxtsız vəfat etdiyindən Əbdüssalam üç dəfə ailə həyatı qurmalı olmuşdu. Axundzadə ilk olaraq Ummu-Sələmə Abdul-Əlibəy Muradxanov qızı ilə ailə qurmuş və onların altı övladı: Əbdüllətif bəy, Əbdürrəşid bəy, Asəf bəy, Validə xanım, Zabitə xanım, Hidayət bəy dünyaya gəlmişdir. Ummu Sələmə xanım vəfat etdikdən sonra o, ikinci dəfə Gülarə xanım Hacı Ələkbər qızı ilə izdivaca girmişdir. Və bu izdivacdan onun qızı Asiya dünyaya

---

[13]Məmmədli H. Qafqazda İslam və Şeyxülislamlar.Bakı, 2005, 180 səh

[14] Şeyxülislam Allahşükür Paşazadənin orden və medalları /Tərt.edənlər prof. Anar İsgəndərov, t.e.n. Samir İsmayılov, Ziyad Əmrahov. Bakı, Qismət, 2010, 184s

[15]Əl-Fəlah Dr. A. A. Şeyxülislam ənənə və müasirliyin vəhdəti. Bakı. Qismət, 2009, 144 s.

16ARDTA - fond №290, siyahı 1, № 1508, v.32-33].

gəlmişdir. Amma Gülarə xanım da cavan ikən dünyasını dəyişmişdir. Onun üçüncü nikahı Sona xanım Cavadbəy qızı ilə olmuşdur [17].

Həyat yoldaşı və uşaqları onunla birlikdə Tiflisdə Şeytanbazar məhəlləsindəki Qorqa Sala küçəsində yaşamışdılar.

Arxiv sənədlərinə əsasən Qafqaz Təhsil dairəsinin Popeçiteli tərəfindən Ə.Axundzadəyə 1879-cu il 6 oktyabr tarixində Tatar şöbəsində müəllim işləmək icazəsi verilmiş, 1880-ci il 28 iyul 4041 №-li qərarı ilə isə rəsmən müəllim təyin olunmuşdur.

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində mühafizə olunan Əbdüssalam Axundzadəyə məxsus xidməti iş siyahısı, döğum şəhadətnaməsi, Qori müəllimlər seminariyasına Türk dili və şəriət müəllimi təyin olunması və ora dəvət edilməsi, övladlarının döğum və təhsil şəhadətnamələri və sair sənədlər, dahi şəxsiyyətlər İsmayıl bəy Qasprinskinin "Tərcüman" qəzetində Axundzadəyə həsr etdiyi "Ağ gül dəstəsi, yaxud ədəbiyyati-cədidə xidmətləri" və Nəriman Nərimanovun "Həyat" qəzetinində nəşr olunan "Mühüm bir məsələ" məqalələri təqiqata cəlb olunmuşdur.

**"Əbdüssalam Axundzadənin şeyxülislamlıq fəaliyyəti"** adlanan paraqrafda XIX əsrin sonu XX əsrin əvvəllərində çar Rusiyası ərazisində[18,19], xüsusilə də Qafqazda çap olunan dövrü mətbuat[20], arxiv sənədləri[21], çoxsaylı ədəbiyyatdan istifadə etməklə Axundzadənin 21 iyun 1894-cü ildə şeyxülislam təyin olunması, 1896-cı ildə çar II Nikolayın Moskva şəhərində təntənəli tacqoyma mərasimində iştirakı[22], Tiflisdə Ali Ruhani məktəbinin açılışı üçün icazənin alınmasında və tikintisində əməyi[23], rəsmi səfərləri[24], Tiflisdə Qafqaza canişin təyin olunmuş Qraf Vorontsov–Daşkofla

---

17ARDTA – fond №290, siyahı 1, №1627,v13

[18] ترجمان. غ. قزشقولاسی۱۸۹۶(ینوار۱۴) ص.- ۱.

[19] ترجمان غ شیخ الاسلام له سو یله شو. ۱۹۰۵(ایون۲۴) - ص-۲

[20] ارشاد غ شیخ الاسلام جنابلارنین وفاتی ۱۹۰۷/۱۱/ ۲۲ ۱۲۰-۱۱۷

[21] ARDTA – fond №290, siyahı 1, №1627; № 1508; siyahı 2, №2612; №2617

[22] ترجمان غ.- موسقو.۱۸۹۶۱ (ایون۲) ص. ۱-۲

[23] ترجمان غ روحانی مدرسه علیه ۱۹۰۵ (مارت۴-۸) - ص-۱.

[24] ترجمان غ. . شیخ الاسلام زاقافقاز ۱۹۰۵(فورال۱۱) - ص-۲

görüşü[25], dövrün mütərəqqi ziyalıları ilə münasibəti[26,27] və onların Axundzadə haqqında qiymətli fikirləri, əldə etdiyi titul, orden və medalları[28] haqqında məlumatlar dəyərləndirilmişdir.

Mirzə Həsən Tahirzadədən sonra sayca V şeyxlülislam təyin olan Axundzadəyə geniş səlahiyyətlər verilməmiş, fəaliyyəti daim nəzarət altında olmuş, hətta Ruhani İdarəsinin tabeliyində olan idarə, məscid və səlahiyyətli şəxsləri nəzərdən keçirtmək üçün belə hakim dairələrdən rəsmi icazə almışdır. Təəssüf ki, əksər hallarda ona imtina cavabi gəlirdi[29].

Çarizm və onun islamşünaslıq sahəsində fəaliyyət göstərən əməkdaşları müsəlman xalqlarının milli-azadlıq hərəkatında islam ideologiyasından bir bir bayraq kimi istifadə oluna biləcəyi ehtimalından qorxduqlarından (Şeyx Şamilin başçılığı altında baş vermiş müridizm hərəkatı kimi) müsəlmanların ruhani işlərinə rəhbərlik üçün dövlətin hərəkət xəttini müəyyən edən "tövsiyyənamə" hazırladı. Müşavirənin 17 aprel 1905-ci il tarixli bu "tövsiyyənamə"sini  Qafqaz canişininin göstərişi ilə müfti Hüseyn Əfəndi Qayıbov və şeyxülislam Əbdüssalam Axundzadə aylarla ezamiyyətdə olub, Qafqazda müsəlmanlar yaşayan əyalətləri gəzmiş, öz məzhəbləri üzrə camaat qarşısında bu tövsiyyənamələr əsasında çıxışlar etmişlər. Bu paraqrafda 9 hissədən ibarət həmin tovsiyyənamədən nümunələr təqdim olunub.

İmperiya qanunlarına görə xaricdə təhsil alanlara Rusiya hüdudlarında vəzifə almaq yasaq idi. Ölkə ərazisində Ali ruhani mədrəsə isə yox idi. Axundzadəni bu məsələ çox narahat edirdi. Bu çətinlikləri həll etmək üçün bir ali ruhani mədrəsəsinin tikilməsi dövrün ən aktual problemi idi. Çünki icazə istəyi ilə hökumətə edilmiş çoxsaylı müraciətlər səmərə verməmişdir. Hətta mədrəsənin

---

[25] ترجمان غ. - شيخ الاسلامک. نطقی. -۱۹۰۵ (مای-۲۰) ص.- ۱

[26] H.Z.Tağıyev – Redaktoru Vasif Quliyev./ Tərtib edənlər: Ə.Haşimoğlu, Ə.Bağırov, P.Əlioğlu. / Bakı. Azərbaycan nəşriyyatı -1993, 144 səh.

[27] Əliyeva Kəngərli Aybəniz. İsmayıl bəy Qasprinski. Bakı: Nurlan, 2004, 283 səh.

[28] ARDTA- fond №290,  siyahı 1, №1957; №1627; № 1508

[29] ARDTA – fond №290, siyahı 2, №2366

inşası üçün lazım olan xərcləri əhali öz üzərinə götürdüyünü bildirməsinə baxmayaraq, çar üsul-idarəsinin razılığını almaq mümkün olmamışdır.Vəliəhd Aleksey Nikoleyeviçin anadan olması xəbərini aldığı zaman, Şeyx bundan yaxşı məqamın ola bilməyəcəyini başa düşərək Qafqazın baş valisi general Frazeyə müraciət edib böyük knyazın anadan olma gününün yadigarı olaraq Alekseyevski Ali Ruhani Mədrəsəsinin tikilişinə icazə istədi. Bu, məqamında edilmiş təşəbbüs nəticəsiz qalmamışdır. Həmin mədrəsənin tikilişinə aid ARDTA saxlanılan sənədlər[30], köhnə dövrü mətbuatda işıqladırılan məqalələr və mədrəsənin nizamnaməsindən bəzi hissələr[31] tərcümə və transliterasiya olunaraq tədqiqat işinin bu paraqrafında təqdim olunmuşdur.

II fəslin üçüncü paraqrafı **"Ermәni-müsәlman davası vә Əbdüssalam Axundzadәnin vәfatı"** adlanır. Bu paraqrafda çar Rusiyasının məqsədyönlü şəkildə kütləvi olaraq ermənilərin Azərbaycan torpaqlarına köçürməsi, daşnaqsütün firqəsinin dinc azərbaycanlılara qarşı hazırladığı qətliamlar, erməni ruhanilərinin bu qırğınların ilhamvericiləri olmaları, bütün erməniləri müharibədə iştirak etməyə çağırması lakonik şəkildə izlənilir[32].

Azərbaycanlıların əks hücümları zamanı hakimiyyət sülh yaratmaqdan ötrü Axundzadəni münaqişə bölgələrinə ezamiyyətə göndərməyə məcbur oldu[33]. Səlahiyyətləri çərçivəsində münaqişəni sülh yolu ilə həll etməyə çalışan Axundzadə, hakim dairələrə və mətbuat orqanlarına iğtişaşın əsl səbəbkarlarının ermənilər olduğunu çatdırmağa çalışırdı. O, qorxmadan erməni ailələrinə də gedərək qırğınların əsl səbəbkarı Daşnaqsütunu lənətləmiş, sıravi xalqı sülhə çağırmışdır. Bu paraqrafda Mir Möhsün Nəvvab[34] və Məmməd Səid

---

[30] ARDTA - fond №290, siyahı 2, №2612

[31] ترجمانغروحانيمدرسهعليه۱۹۰۵ (مارت۴-۸) - ص-۱.

[32] Məsud Əxtar Şeyx .Yalanlar Yalanlar bir daha Yalanlar –"Təhsil" Bakı 2008, 252səh.

[33] تاريخيمحاربهلرينينومسلمانعموماًقافقازدا‌ارمنيميرمحسن نوّاب شوشاشهرنده

[34] Mir Möhsün Nəvvab 1905-1906 cı illərdə erməni-müsəlman davası. Tərtib edən K.Şərifli və Arif Ramazanzadə. Bakı, Qanun, 2014 180 səh.

Ordubadinin[35] əsərlərindən parçalar verilərək Şeyxülislamın münaqişə bölgələrinə səfərləri və buradakı fəaliyyəti təsvir olunur.

Həmin ərəfədə mətbuatda Zaqafqaziya şeyxülislamı axund Əbdüssalam Axundzadənin milliyyətindən və dinindən asılı olmayaraq Cənubi Qafqaz xalqlarına müraciəti yayımlanır[36].

Tarixi faktlar və sübutlarla Axundzadə və onun ailəsinin də bu münaqişələrdən maddi və mənəvi ziyansız və qurbansız ötüşmədiyi məlum olur. O, münaqişə bölgələrində olarkən ailəsi Tiflis qırğınlarının şahidi olur, qızı Zabitə xanım gördüyü vəhşiliklərdən əsəb sarsıntısı keçirib vəfat edir. Şeyxi xalqın başına gələn faciələr, günahsız insanların axan qanı, üstəlik qızının vəfatı zamanı keçirdiyi iztirab və stress ölümünə səbəb olan bir xəstəliyə düçar edir. Şeyxin Məmməd ağa Şaxtaxtinskinin «Кафказ» qəzetində dərc olunmuş «Слово страдаюаго шейхь-уль-ислама»[37] (İztirab çəkən Şeyxülislamın sözü) məqaləsində dediyi kimi *"Mən heç vaxt xəstələnməzdim əgər bu mənasız münaqişə olmasaydı"*. O, 1907-ci il noyabrın 18-də vəfat edir və Tiflisdə "Nəbatət bağı"nda dəfn olunur[38].

Paraqrafın sonunda Axundzadənin ölümündən sonra yaranan vəziyyət, əziz xatirəsinin yad olunması, ailəsinin düşdüyü ağır durum barədə arxiv sənədləri[39] və mətbuat səhifələri əsasında faktlar təqdim olunur[40]. Həmçinin Axundzadənin nəsil şəcərəsi, hal-hazırda Azərbaycanda yaşayan nəslinin nümayəndələri haqqında məlumat

---

[35]Ordubadi M.S. Qanlı illər. Ərəb əlifbasından çevirən və çapa hazırlayan: Ə. Bağırov. Bakı, Qafqaz, 2007. 184 səh.

[36]Məmmədov, F. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri 1905-ci il Tiflis kütləvi qırğınları dövrün arxiv mənbələrində və yerli mətbuatda // AMEA Tarix İnstitutunun elmi əsərləri (xüsusi buraxılış–"Birinci Dünya müharibəsi və Azərbaycan" beynəlxalq elmi konfransının materialları), -Bakı: -2014, №l 48-50, -s.390-403

[37] Шахтахтинский Мамед-Ага. Слово страдающа гошейхъ-уль-ислама. /Кавказ газета/ Тифлис, 1907,15 февраля, №37, с.3.

[38]Nəzirli Ş.Ə. Qoridən gələn qatar. Bakı, Şərq-Qərb, 2011. 492 səh

[39]ARDTA - fond №290, siyahı 2, №2612

[40] ARDTA - fond №290, siyahı 1, № 1508

əldə edilir. İki böyük nəslin - Axundzadələr və Vəzirovlar yadigarı olan Aida xanım Axundzadə ilə görüş keçirilərək tədqiqat işini daha da əhatəli etmək üçün yaddaşlarda qalan, nəsildən-nəslə ötürülən xatirələri bölüşmək xahiş edilmişdir.

Şeyxin oğlu Rəşid bəy Xarkov universitetin hüquq fakultəsini bitirərək, əvvəlcə vəkil müavini, sonra vəkil işləmişdir. 1918-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra o, Bakının qubernatoru vəzifəsində çalışmış, Nəcəf bəy Vəzirovun qızı Sara xanımla ailə həyatı qurmuşdur. 1937- ci ildə həbs olunan Rəşid bəy, Vyatska sürgün olunmuş, çəkdiyi əzablara dözməyərək orada xəstəlib vəfat etmişdir[41].

Dissrtasiyanın **"Əbdüssalam Axundzadənin əsərlərində dini-etik məsələlər"** adlanan III fəslinin ilk paraqrafı **"Əbdüssalam Axundzadənin əsərləri"** adlanır. XIX əsrin ortalarında tədris sahəsində elmi-pedaqoji tələblərə cavab verən dərsliklər meydana gəlməyə başladı. Tərtib olunmuş belə dərslik və dərs vəsaitlərinin müəlliflərindən biri də Əbdüssalam Axundzadə olmuşdur. Əsərlərinə yazdığı müqəddimələrdən məlum olur ki, o, bu kitabları vətən övladları üçün faydalı olacağı ümidi ilə yazırdı: *"Şükürlər olsun bu zənn və təxminim müəxxərən (sonradan) eynəl-yəqin (gözlə görüb inanma, şübhəsiz) məqamında ayan və aşkar oldu. Yəni ərbabe maarif indində (yanında) məqbul və mətbu görünüb. Ümid tutduğum nəfə (fayda) və nətayic (nəticilər) hər bir məktəbdə hüsula gəlməyə başladı. Bu cəhətdən nə dərəcədə məsud və bəxtiyar olduğum və hər bir nəfəs çəkincə şükür sənaya qadir olursam adaye (deməkdə, etməkdə) şükranedə aciz qahir bulunduğum təbii və bədihi (aydın, isbata ehtiyacı olmayan) bir əhvaldır"*[42].

Bu paraqrafda Axundzadə irsinə aid əlyazma, litoqrafik (daşbasma) və əski çap kitablarında yer alan əsərlər barədə geniş məlumat verilir. Bu əsərlərin çap olunmasına Zeynalabidin Tağiyev, İsmayil bəy Qasprinski, İranın Tiflisdəki baş konsulu, general adyutant Mirzə Rza xan kimi şəxsiyyətlər təşəbbüs və maddi yardım

---

[41] Əbilov (Turan) A.İ. Darülmömininin. Bakı: Elm və Təhsil, 2012. 432 səh.

[42] تفليسآخونــدزادهعبدالســلازبدةالاحكام ۸۳ص۱۳۲۰/،۱۹۰۳

göstərmişlər. Yazdığı kitablara müctəhid Ağa Seyyid Əli əl-Əkrəm Şirvani, Zaqafqaziya şeyxülislamı Mirzə Həsən Tahirzadə rəy və nəşrinə xeyir dualar vermişlər.

İsmayıl bəy Qaspıralı 1901-ci ildə qələmə aldığı "Məbadi Təməddüni İslamiyani-i Rus" (Rusiya müsəlmanlarının mədəniləşməsinin başlanğıcı) adlı yazısında Rusiya müsəlmanlarının tərəqqisində mühüm rol oynayan kitabların sırasında Əbdüssalam Axundzadənin əsərlərini də təqdim edir.

Axundzadənin əski çap əsərlərinə Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsindən əlavə, ölkəmizdə və xaricdə olan bir çox kitabxanalarda rast gəlmək olar[43]. "Qavaide müxtəsəre farsi" adlı əsərinin avtoqraf əlyazması" və onun əski çap variantının, "**Tarixi müqəddəs ənbiya və tarixi müqəddəs xatəmul ənbiya və xilafət**", **"Xətti təliq və nəstəliq" kimi əsərlərin** tekstoloji və müqayisəli təhlili və tədqiqi verilib.

**"Əbdüssalam Axundzadənin dini-ideoloji baxışları"** adlı növbəti paraqrafda Axundzadə ittihadi-islam tərəfdarlarından biri kimi dəyərləndirilir, onun xalqın birliyi üçün dediyi qiymətli fikirlər təqdim olunur.

Axundzadə hakimiyyət tərəfindən milləti parçalamaq, birliyini qırmaq üçün qabardılan sünni-şiə davalarının aradan qaldırılması, xalqın gözünün açılması üçün imkanı daxilində mümkün üsullardan istifadə etməyə çalışmışdır. Onun bu səylərini Əlimərdan bəy Topçubaşi S.G.Cantyurinə yazdığı məktubunda dəyərləndirmişdir: "*Şiələrin başçısı olan Zaqafqaziya şeyxülislamı "sünni və şiələrin nə fərqi vardır sualına belə cavab vermişdi: "Daha yaxşı olar siz soruşasınız ki, bu məzhəblər niyə mövcuddur. Mən onları qəbul etmirəm və bəyan edirəm: mən nə şiə, nə də sünniyəm. Mən*

[43] Azərbaycan kitabı : biblioqrafiya : 3 cilddə, I c. /Azərb. SSR Mədəniyyət Nazirliyi, Azərb. SSR Kitab Palatası ; tərt. ed. Ə. Y. Əliyev ; red. hey.: H. Araslı, Ə. Mirəhmədov, M. Sultanov. / 1963, 219səh.

*müsəlmanam”. Qızıl sözlərdi...”* [44] yazaraq Topçubaşi məktubuna davam etmişdir.

Bu paraqrafda “Mütaliye kitabe İqan”[45], “Müdafie bər müqabileye xəsm”[46] kimi əsərlərin yazılma tarixi, bu dövrdə həmin kitablara duyulan ehtiyac, Axundzadənin bu əsərlərdə əks olunan dini-ideoloji baxışları, bəhailər tərəfindən kitabların yazılmasına olan etiraz, cəmiyyətə yaranan rezonans barədə məlumatlar verilib, əsərlərin tekstoloji və müqayisəli təhlili hazırlanıb.

Ustad mühit Təbatəbai Şeyxülislamın qələmə aldığı risalənin əhəmiyyəti haqqında yazmışdır: *“-...Qafqaz şeyxülislamı Axundzadə tənqidi risalələri yazdıqdan sonra Əbdülbaha və Mirzə Əbülfəz də ona cavab yazmaq istədilər. Bahanın göstərişi ilə Mizə Əbülfəz Gülpayiqani Qafqaz şeyxülislamının risalələrinə rədd cavabı yazmalı oldu. Altı aydan sonra Qahirə şəhərində “Fəvaid” adlı kitab çap etdilər. Onu - Qafqaz şeyxülislamını yalançı olduğunu və başqalarının sifarişi ilə yazdığını iddia etdilər”.*

Hacı Zeynalabdin Tağıyevinin qızlar məktəbinin açılışı zamanı Axundzadə o dövrdə nəinki təkçə Azərbaycanda və Qafqazda, ümumən müsəlman dünyasında hələ heç bir ruhaninin etmədiyini edirdi: *“qızların məktəbə verilməməsinə islam dini deyil, ölkənin adətləri bais olub”*- deyə dini-ideoloji baxışlarını bütün aydınlığı ilə meydana qoyurdu.

O, həm müxtəlif mədrəsə və seminariyada tədrislə məşğul olduğu zaman, həm də şeyxülislam kimi fəaliyyət göstərdiyi vaxtlarda dini-pedaqoji əsərlər yazıb nəşr etdirmişdi. Onun Zubdətul əhkam[47], Umdətul əhkam[48] əsərləri təhsil müəssisələrində istifadə

---

44. Документы и письма из личных архивов А.М. Топчибаши и Дж. Гаджибейли (1903–1934 гг.)” ( № 18 Письмо А.М. Топчибашева С.-Г. Джантюрину) / Сост., предисл. и прим. С.М. Исхаков. - Москва: Издательство «Социально-политическая МЫСЛЬ», 2012. - 280 с.

[45] عبدالســلام کتاب مطالعه ایقان (درمطالبآن)آخونــدزاده

[46] آخونــدزاده عبدالســلام مدافعه بر مقابلهخصم - ص۸۴ ۱۸۹۷/۱۳۱۵ مطبعه تفلیس /کمال افندی انسیزاده

[47] Yenə orada

olunduğu üçün 2-3 dəfə müxtəlif şəhərlərdə, müxtəlif nəşriyyatlarda təkrar çap olunmuşdur. Paraqrafda bu əsərlərlə yanaşı, İslam dini tədris kitabı adlı müəllifin avtoqraf əlyazmasının tekstoloji tədqiqi və dini görüşləri verilib.

Dissertasiyanın sonuncu paraqrafı **"Əbdüssalam Axundzadənin əsərlərində etik görüşlər"** adlanır.

XIX əsrin sonu XX əsrin başlanğıcında ictimai, pedaqoji tərəqqinin nümayəndələrindən biri olan Axundzadə əxlaq sahəsində də diqqətəlayiq irs qoymuşdur. Axundzadənin etik görüşlərinin əsasını elmin və maarifin geniş yayılması ilə yanaşı ədalət, tərbiyə işlərinin düzgün istiqamətdə aparılması, insanların əxlaqının saflaşdırılması, müsbət əxlaqi keyfiyyət və sifətlərin aşılanması və başqa mütərəqqi əxlaqi ideyalar təşkil edir. Axundzadə bu xüsusda etik traktat olan "Vəz və nəsihət"[49] və "Cəhalət dərdinin dərmanı"[50] kimi əsələrini geniş oxucu kütləsinə təqdim etmişdir. Paraqrafda müəllifin əsərlərində olan etik fikirlər dəyərləndirilərək müəyyən transfoneliterasiyalar verilmişdir. Axundzadə sadə xalqda da təhsilin vacibliyi və faydası barədə təsəvvürlərinin olduğunu bildirir. Lakin hər kəs üçün təhsili necə əldə etmək yolları haqqında məlumatı yoxdur. *"Onsuz da cəhalət xəstəliyinə düşənlərin çoxu öz dərdini bilir və əlacının da elm və təhsil olduğunu eşidib-öyrəniblər. Amma acizlik və qüsurları budur ki, bilmirlər hansı yollarla, qüvvə və qüdrətlə onu əldə etsinlər. Bəziləri buna çalışsa da bir fayda görmürlər"*[51].

Axundzadənin fikirlərində humanizm ideyaları geniş yer tutur. Bu onun görüşlərinin mühüm tərkib hissələrindən birini təşkil edir. Axundzadəyə görə bekarçılıq, qubarbazlıq, avaralıq və tənbəlliyin insana zərəri saydıqca qurtarmır. Bu xoşagəlməz sifətlər insanı həm

---

48 آخونــدزاده عبدالســلام. عمدة الاحکامرساله ـ۱۸۸ تبریز۱۳۲،۱۳۰۰ص/

49 ۱۹۰۳۴۰صآخونــدزاده عبدالســلام وعظ و نصحیتباکواولینجیشرکت مطبعهسی۱۳۲۰/.

50 آخونــدزاده عبدالســلام جهالت درد ینک درمانی (وتدای اصولنک شرح و بیانی باغجهسرای،۱۸۸۹، ۲۹ص

51 Həmin mənbə.

mənəvi cəhətdən eybəcərləşdirir, həm də onun sağlamlığına, psixikasına ciddi zərər vuraraq fiziki cəhətdən zəlil edir.

Axundzadə etik görüşlərində qadına, onun ləyaqətinə dərin hörmət bəsləməyi mühüm əxlaqi vəzifə səviyyəsinə qaldırmışdır. Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və maddi yardımı ilə fəaliyyətə başlayan qızlar məktəbinin açılışı zamanı Axundzadənin mətbuatda həm Hacı ilə həmrəyliyinə, həm də qızların təhsilinin vacibliyinə dair məktubu məqalə şəklində çap olunur:

*“...o məktəbin uşaqlarımız üçün tərbiyəli analar hazır etməgilə onların nəsillərinin tərbiyə ilə uzanmağına səbəb olacaq... Bu mətləbdə şəkk yoxdur ki, insanın tərbiyəsi barəsində əvvəlimci dərəcədə əhəmiyyətli ananın tərbiyəsidir... çox nəfər mütəəllimələr orada oxuyub xoşbəxt olmaqlarına səbəb olacaqdır. Səmimi qəlb ilə biz o məktəbin yaxşılıq ilə açılmağını istida edirik. Biz çox ümid tuturuq ki, o məktəbdə təlim tapan qızlar özlərinin yaxşı xasiyyət və gözəl adət vəzifələrilə başqa bacılarına dəxi misal olacaqdırlar”*[52]

Axundzadə əxlaq dəyərlərindən olan insan şərəfinə və ləyaqətinə çox həssas yanaşmış, cəmiyyətdə “ruhani şərəfini” və “ruhani ləyaqətini” qorumağa çalışmışdır. Bu dövrdə ruhanilərə olan haqlı və haqsız hücümlar bütün ruhanilərin şərəf və ləyaqətini alçaltmışdır. Vəz və nəsihət əsərinin VI fəslində müəllif islam alimləri haqqında mətbuatda çap olunmuş bəzi tənqidi yazılara öz fikirini bildirmişdir.

Xoşbəxtlik anlayışı haqqında mütəfəkkirlərin fikirləri müxtəlifdir. Ə.Axundzadə də xoşbəxtlik kateqoriyasını özünəməxsus şəkildə xarakterizə edir:

*“Pəs xoşbəxt o cavandır ke, əyyame şəbabında (cavanlığında) həvaihəvəsini (ehtirasını) zahirdə şirin və batində zəhərli olan müştəhiyyatına (arzularına) allanmayıb, özünün qızıl kimi bahalı və ziyalı olan ömrüni və ən əziz və ləziz olan günlərini və saatlarını zay etməyib kəsbi maarifə və əxlaq və ədəbe həsənə, təhsilinə sərf edə və bu vəsilə ilə səadət və şərafət və izzət toxumunu əkə. Bu toxum*

[52]H.Z.Tağıyev – Redaktoru Vasif Quliyev./ Tərtib edənlər: Ə.Haşimoğlu, Ə.Bağırov, P.Əlioğlu. / Bakı. Azərbaycan nəşriyyatı -1993, 144 səh.

*İnşəallah bir uca və barvər (məhsuldar) bir ağac olar ke sayəsində rahat və fərağətli (ehtiyacsız, istirahət) yaşayıb və tənd (çətin) işlərdə nəfə və fayda götürərsən.*

Şərq və Qərb mədəni irsinə və dini-etik dəyərlərinə yiyələnmiş ziyalılar, o cümlədən ali ruhanilər inanırdılar ki, cəmiyyətin bütün bəlaları cəhalətdən doğur. Onlar əmin idilər ki, elmi, maarifi, dini bilgiləri doğru şəkildə təlim etməklə cəmiyyətin sosial dəyişməsinə, xalqın xoşbəxtliyinə, mədəni və iqtisadi inkişafa nail olacaqlar. Azərbaycan maarifçilərinin etik görüşləri hər şeydən əvvəl XIX əsrin ikinci yarısında Azərbaycan ictimai-siyasi və iqtisadi şəraitinin məhsulu və onun inikası idi[53].

Tədqiqat işində Axundzadənin həyatı və ictimai, siyasi, pedaqoji fəaliyyəti, dini-ideoloji və etik görüşləri, elmi yaradıcılığı ilk dəfə sistemli şəkildə araşdırılmışdır. Araşdırmanın nəticələri aşağıdakı şəkildə əldə olunmuşdur:

1) Ufa və Tavrida Ruhani İdarələrinin yaradılması tarixi və zəruriyyəti müxtəlif mənbələrdən istifadə edilərək araşdırılmış və idarələrin analoqunun Qafqazda da yaradılması və Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nizamnaməsi tədqiq edilmişdir.

2) Qafqaz Ruhani İdarəsinə təyin olunmuş şeyxülislamların islam elmlərinə verdiyi tohfələr haqqında tədqiqat aparılaraq Azərbaycan elm və mədəniyyəti üçün mühüm nəticələr əldə edilmişdir.

3) Tədqiqat işi zamanı Azərbaycan Dövlət Tarix Arxivindən Axundzadənin şəxsi həyatına və ictimai fəaliyyətinə aid sənədlər aşkarlanmışdır. Burada onun anadan olma şəhadətnaməsi, təyin olunduğu vəzifələrin, ezamiyyətlərin və təltif olunduğu orden və medalların əmrləri, xidməti iş siyahısı, Qafqaz Təhsil dairəsinin Popeçiteli, Müəllimlər seminariyasının direktoru, Xarici etiqatların ruhani işlər üzrə departamentinin rəisi, Qafqaz mülki işlər üzrə baş rəislər və başqa vəzifəli şəxslərə məktub və müraciətləri, Axundzadə vəfat edikdən sonra ailə üzvlərinin və onlara olan müraciət, bildiriş

53Göyüşov Z. Azərbaycan maarifçilərinin etik görüşləri XIX əsrin ikinci yarısı. Bakı: Azərnəşr, 1960, 211səh

və ərizələr və başqa sənədlərin açılması bir çox tarixi faktların üzə çıxmasına səbəb oldu.

4) Azərbaycan cəmiyyətinə neçə-neçə ziyalılar yetirmiş Qori müəllimlər seminariyasının açıldığı vaxtdan, yəni 1879-cu ildən şeyxülislam təyin olunanadək ilk Azərbaycan dili və şiə şəriət müəllimi kimi fəaliyyəti tədqiq edilmişdir.

5) Tədqiqat işində ilk dəfə olaraq Ə.Axundzadənin şeyxülislam kimi fəaliyyəti araşdırılmışdır. Bunun üçün isə ilk öncə o illərə aid dövrü mətbuat: İrşad, Tərcüman, Həyat, Kaspi kimi qəzet materiallarından istifadə edilmişdir. Daha sonra XIX əsrin sonun XX əsrin əvvələri Azərbaycan tarixi mənbələri tədqiq edilmişdir.

6) Bu dövrdə baş verən erməni-müsəlman davası zamanı Axundzadənin vətənpərvər bir ruhani rəhbəri kimi fəaliyyəti araşdırılmışdır. Aparılan tədqiqatdan məlum oldu ki, azərbaycanlılar yaşayan bütün ərazilərdə ermənilərin törətdiyi soyqırımı, bu qırğınların qarşısını almağa çalışan Axundzadə və onun ailəsindən də yan keçməmiş, böyük faciələrlə üzləşməsinə səbəb olmuşdur.

7) Tədqiqat zamanı Əbdüssalam Axundzadənin dövrün ziyalıları ilə yaxın dostluq münasibətləri araşdırılmışdır.

8) Axundzadənin ailəsi barədə Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin materialları araşdırılmış, barələrində çoxlu məlumatlar əldə edilmişdir. Hal-hazırda Bakıda yaşayan Axundzadə nəslinin davamçıları ilə əlaqə saxlanılmış, onların ailə arxivindən qiymətli məlumatlar əldə edilərək nəsil şəcərəsi öyrənilmiş və elmi işə əlavə olunmuşdur.

9) Müəllifin həyatı ilə yanaşı elmi irsinin də ilk dəfə tam olaraq tekstoloj xüsusiyyətləri geniş şəkildə araşdırılaraq müqayisəli təhlili verilmişdir. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar Institutunun xəzinəsində qorunan əsərləri ilk dəfə olaraq araşdırmaya cəlb edilmişdir. Axundzadənin dünya kitabxanalarında qorunan əsərlərinin litoqrafik (daşbasma) və əski çap nüsxələri də göstərilmişdir.

10) Ə.Axundzadənin maarifçi - ruhani, şeyxülislam kimi dini-əxlaqi baxışları araşdırılmışdır.

11) Ə.Axundzadənin XIX əsrin sonları - XX əsrin əvvəllərində ərsəyə gətirdiyi dini-pedaqoji tələblərə cavab verən dərslik və dərs vəsaitləri ayrı-ayrılıqda tədqiq edilmişdir. Bunlardan "Müqəddəs peyğəmbərlər tarixi", "Xətti-təliq və nəstəliq" adlı sərməşq, "İslam haqqında tədris kitabı", "Umdətul-əhkam", "Zubdətul əhkam", "Fars dilinin sərf və nəhvi" və başqa əsərlərini göstərmək olar. Bu əsərlərdə müəllifin  dini-ideoloji görüşləri tədqiq olunmuş, xalq arasında bu əsərlərə olan tələbatı, dini-əxlaqi dəyərləri vurğulanmışdır.

12) Axundzadənin əsərlərində xoşbəxtlik, ədalət, şərəf və ləyaqət, qadına dərin hörmət bəsləmək kimi etik dəyərlər qiymətləndirilmiş, maarifçilik ideyaları, şəxsiyyət konsepsiyası prinsipləri dəyərləndirilmişdir.

Axundzadənin əxlaqi görüşlərinin tədqiqi böyük elmi nəzəri əhəmiyyət kəsb edir. Ona görə ki, Axundzadənin ideya irsi bu gün də öz tərəvatini itirməmişdir. Bu mənada onun əxlaqi baxışlarının tədqiqi Azərbaycan mədəni irsinin tədqiqi nöqteyi-nəzərindən ciddi məna kəsb edir.

Şeyxülislam olmaqla yanaşı görkəmli pedaqoq və alim Ə.Axundzadə Azərbaycan ziyalılarının etik görüşlərinin əsas prinsipi olan xalqa xidməti özünə ən yüksək əxlaqi borc hesab edərək, ömrünü xalqın savadlı, saf, milli-dini ruhda yetişməsinə qulluq etmışdir. O, həmçinin cəmiyyətin mədəni-maarif, sosial-siyasi həyatında da mühüm rol oynamışdır. Bu səbəbdən Axundzadənin həyat və yaradıcılığının araşdırılması bütünlükdə dinşünaslıq elmində atılan əhəmiyyətli addım kimi sayıla bilər.

**Dissertasiyanın mövzusuna aid dərc edilmiş əsərlərin SİYAHISI :**

1. “Şeyx Əbdüssalam Axundzadə” “Dövlət və din” ictimai fikir toplusu.Yanvar-fevral-2010. s. 197-201
2. “Qafqazda Müsəlman Ruhani İdarəsinin yaradılması və ilk şeyxülislamlar” “Dövlət və din” ictimai fikir toplusu. Yanvar-fevral 2012. s. 112-120
3. “Azərbaycanlı şeyxülislamlar Azərbaycan Xalq Cümhuriyyəti dövründən günümüzədək” “Dövlət və din” ictimai fikir toplusu. Mart-aprel 2012. s.116-121
4. “Sovet dönəmində Ruhani İdarəsi”. Geo strategiya aylıq ictimai-siyası, elmi-populyar jurnal № 05 (11) Sentyabr-oktyabr 2012. s. 68-71
5. “Şeyxülislam Əbdüssalam Axundzadə və övladları” Gənc alimlərin əsərləri №8 /2013. s. 197-202
6. “Ə.Axundzadə və onun “Tarixi müqəddəs ənbiya, Xatəmul ənbiya və xilafət” əsəri”. Geo strategiya aylıq ictimai-siyası,elmi-populyar jurnal №06 Noyabr-dekabr 2014. s.55-56
7. “Əbdüssalam Axundzadənin müəllimlik fəaliyyəti” Bakı dövlət universiteti –İlahiyyat fakültəsinin elmi məcmuəsi. №22 Dekabr (Aralık) 2014. s. 385 – 392
8. “Əbdüssalam Axundzadənin şeyxülislamlıq fəaliyyəti barədə” “Dövlət və din” ictimai fikir toplusu. İyul-avqust 2016. s. 64-70
9. “Rusiya imperiyasında ilk Müsəlman Ruhani İdarəsi” “Varlıq” jurnalı/ Türkiyə -Ankara/ İkinci dönəm, Bahar 2016. s.54-63
10. «Пятый шейх-уль-ислам духовного управления мусульман Кавказа» // Актуальні проблеми філософії та соціології» науково- практичний журнал(випуск 20) Міністерство Освіти І Науки України Національний університет «Одеська юридична академія»,2017. с.105-107
11. “Şeyxülislam Gəlini” //AQUPDK, YAP Qadınlar Şurası və MİMTA Fondunun təsisçiliyi ilə çıxan “İşıq-qadın” yurnalının birgə

təşkil etdiyi "Cümhuriyyətə işıq saçan qadınlar" adlı araşdırma-yazı müsabiqəsinə qəbul olunan yazılardan tərtib olunmuş Araşdırma yazılar toplusu . Bakı, "Nurlar" Nəşriyyat Poliqrafiya Mərkəzi, 2018. s. 98-105

12. "Çar Rusiyasınının sonuncu, Azərbaycan cümhuriyyətinin ilk şeyxülislamı" AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI "XƏBƏRLƏR" İctimai elmlər seriyası, №3, 2018. s.70-74

Dissertaiyanın bir sıra müddəaları həmçinin bir çox konfras materiallarının tezislərində əks olunmuşdur:

13. "Şeyxülislam Əbdüssalam Axundzadənin tədris tarixində rolu" / Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti problemləri. XII Respublika elmi konfransının materialları. (Bakı, 3 iyun 2011-ci il).s. 558-564

14. "Şeyx Əbdüssalam Axundzadənin həyatı" (arxiv sənədləri əsasında) / Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri XIII Respublika elmi konfransının materialları (Bakı, 24 may,2013) s.269-272

15. "XIX əsrdə Zaqafqaziya Ruhani İdarəsinin təsəvvürnaməsi" / Azərbaycan şərqşünaslıq elminin inkişafı yolları Ak.V.Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransının Materialları (Bakı,27-28 iyun 2013 – cü il ) s. 744-745

16. "Ə.Axundzadənin Tiflis müsəlman mədrəsəsinin açılmasında rolu" / Aida Imamquliyevanın 75 illik yubleyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda respublika elmi konfransının materialları. Bakı, 2014. s. 350-353

17. "İztirab çəkən Şeyxülislam" – "Uydurma erməni soyqırımı: Yalanlar, iftiralar. Türk müsəlman soyqırımı: Faktlar, həqiqətlər" mövzusunda II Beynəlxalq Elmi Konfrans. Bakı-2015. s. 245-249

18. "Ə.Axundzadənin Əlyazmalar İnstitutundakı avtoqrafları" / Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri XIV Respublika elmi konfransı. Bakı, 22-24 may, 2015. s.241

19. "Şeyxülislam Əbdüssalam Axundzadə şəxsiyyəti" // 10-14 oktyabr 2016-cı il tarixində Gəncə şəhərində Gəncə-Avropa paytaxtı

2016"-ya həsr olunmuş "XXI əsrdə dünya elminin inteqrasiyası prosesləri" adlı beynəlxalq elmi Forumun materialları. s.415-416

20. "Ə.Axundzadənin "Cəhalət dərdinin dərmanı və tədavi üsulunun şərh və bəyanı" əsəri" // Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu 16-17 oktyabr 2017-ci il tarixində akademik Z.M.Bünyadovun xatirəsinə həsr edilmiş "Müasir şərqşünaslığın aktual problemləri" mövzusunda beynəlxalq konfrans Tezislər s. 132

21. Произведения Абдуссалама Ахундзаде, направленные против бахаи» / Материалы Международной Научной Конференции "Высокие технологии и инновации в науке" / Санкт-Петербург, 28 января 2020 г., Издательство: ГНИИ «Нацразвитие». с. 232-236.

22. Əbdüssalam Axundzadənin "Vəz vənəsihət"i / AMEA akad.Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu "Şərq xalqlarının Bakı qurultayı - 1920. Şərq dünyası 100 il əvvəl və bu gün"/ adlı beynəlxalq elmi konfrans. s.107-109.

Dissertasiyanın müdafiəsi “01” iyul 2021-ci il tarixində saat $12^{00}$-da Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən, BFD 4.03 – Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Əhməd Cəmil küçəsi 41A, AZ 1141.
Azərbaycan İlahiyyat İnstitutu

Dissertasiya işi ilə Azərbaycan İlahiyyat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan İlahiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “27” may 2021-ci ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.05.2021

Kağızın formatı: 60x84 1/16

Həcm: 37460  işarə

Tiraj: 100